

**BAHAR MURADOVA,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İDEOLOGİYASI

Tarix – insan əməlinin zaman möhürü ilə təsdiqidir. Tarix – məntiqi ölçü vahidi kimi əslində böyük şəxsiyyətlərin fəaliyyəti, yaddaşlara həkk olunmuş işləri ilə müşaiyət olunur. Düşünən zəkalar onun enerji mənbəyi, bu zəka sahibləri isə tarixin memarlarıdır.

Bu mənada Azərbaycanın yeni tarixində xalqımızın müdrik oğlu Heydər Əliyev şəxsiyyətinin milli ideologiyamızın formalaşması və mənəvi-bəşəri dəyərlərlə daha çox zənginləşməsi üçün göstərdiyi misilsiz xidmətlər əvəzedilməzdir.

Respublikamızın müstəqil dövlət kimi həyata atıldığı ilk dövrlərdə, yəni ötən əsrin 90-cı illərinin əvvəllərində «hər cür ideologiya buxovlarından azad olmaq» cəhdlərinin əsas iki səbəbi vardı: birincisi, «ideologiya» anlayışının cəmiyyət tərəfindən «kommunist ideologiyası» anlayışı ilə adekvat qəbul edilməsi, daha vacib olan ikincisi isə, o zaman dövlətə rəhbərlik edən səriştəsiz insanların zamanın nəbzini tuta bilməməsi, siyasi, iqstiadi, mədəni və mənəvi inkişaf yollarının düzgün arayıb-tapmaq iqtidarında olmaması idi.

Lakin məhz H.Əliyevin yenidən respublikaya tarixi qayıdışı sayəsində bu ideyaların milli mənafe baxımından elmi şəkildə ümumiləşdirilərək konsepsiya səciyyəsinə qalxması üçün real şərait yarandı. Artıq bu gün ölkədə ictimai-siyasi həyat və mənəvi psixoloji durum tam sabitləşmişdir. Buna rəğmən prezidentin çıxışlarında davamlı olaraq dövlətçiliyin əsas prinsipləri araşdırılır, sosial-iqtisadi və mədəni-mənəvi inkişafın strategiyasını müəyyənləşdirən müddəalar öz əksini tapır.

Artıq cəmiyyətdə müəyyənləşməkdə olan, kommunist ideologiyasından köklü surətdə fərqlənən və dövlətin milli mənafeyini əks etdirən əsas prinsiplər və aparıcı ideyalar milli ideologiyanın binasının özülünə çevrilir. Bu ideologiyanın cizgiləri və məğzi H.Əliyev tərəfindən belə təqdim olunur: «Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır». Bu ideologiya bütün xalqın, dövlətin mənafeyinə uyğun olmalı, müxtəlif sosial təbəqələrin, siyasi partiyaların bir ideya ətrafında birləşməsinə yol açmalıdır. Başqa sözlə, «kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın» (H.Ə.Əliyev).

İnkişaf etmiş kapitalist ölkələrində cəmiyyətin idarə olunmasında haqlı olaraq hüquqi dəyərlərin prioritetliyi qəbul olunur və buna görə də ideologiya

düşüncələrə bir təsir mexanizmi kimi inkar edilir. Məsələ burasındadır ki, cəmiyyətin tarixi inkişafının məntiqi ardıcıllığı konstitusiya və qanunların aliliyi prinsiplərinin üstünlük təşkil etdiyi dövrdən əvvəl ideologiyanın başlıca rol oynadığı keçid dövrünü tələb edir. Bu səbəbdən də ideologiya tarixin köklü dönüş məqamlarında – keçid dövründə, islahatlar zamanı, inqilablar ərəfəsində ictimai tələbə çevrilir.

Cəmiyyət dəyişdikcə onu idarə edən qanunlar da ideologiyanın təsiri altında dəyişir, odur ki, keçid dövrünün əsas xüsusiyyətlərindən biri də yeni qanunların qəbul edilməsi bazasında hüquqi quruculuq işidir.

Bir çox Qərb siyasətçiləri keçid dövrünü yaşayan ölkələrin, xüsusilə də postsovet məkanına daxil olan dövlətlərin özəlliklərini nəzərə almadan, onları Qərb standartlarına uyğunlaşdırmağa cəhd göstərirlər. Onların təklif etdikləri ehkam səciyyəli siyasət əslində yeni bir ideologiyanın əsasıdır ki, bu da hamı üçün eyni baxış bucağından qəbul edilə bilməz.

Başqa sözlə, hal-hazırda vüsət almış qloballaşma prosesi elə Qərb standartlarının ideologiya ilə əvəzlənməsi kimi ehtiva olunur. Belə mürəkkəb bir vəziyyətdən çıxış yolu kimi, Heydər Əliyev problemin bütün çətinliklərini təkbaşına öz üzərinə götürərək bir tərəfdən milli ideologiyanın məhz ümumbəşəri dəyərlər sistemi hüdudunda formalaşdırılmasını, digər tərəfdən isə, dövlət quruculuğu prosesində xarici zərərsizləşdirilməsini təmin etməyə nail olmuşdur. O hesab edir ki, «bizim milli ideologiyamızının konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimizin, milli-mədəni, dini ənənələrimizin üzərində qurulmalıdır».

Cəmiyyətin siyasi, iqtisadi və mədəni sahələrinin mütərəqqi inkişafına, milli özünüdərkin formalaşdırılmasına yönəlmiş siyasi, ideoloji və sosial-iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Bu gün Azərbaycan Respublikası artıq Avropa Şurasının tamhüquqlu üzvü kimi dunya arenasında yüksək tribunadan öz sözünü demək imkanı əldə etmişdir. Belə bir konsepsiyanın Heydər Əliyev tərəfindən hazırlanması Azərbaycanın müstəqillik əldə etdiyi dövrə təsadüf edir. Getdikcə təkmilləşməkdə olan bu ideologiyanın ilk müddəaları və əsas istiqamətləri Yeni Azərbaycan Partiyasının Nizamnamə və Məramnaməsində ifadə olunmuşdur. YAP-ın yaradılmasının 6-cı ildönümü münasibətilə keçirilmiş təntənəli yığıncaqda partiyanın liderinin söylədikləri buna sübutdur: «Azərbaycanın müstəqil dövlət kimi milli ideologiyası Yeni Azərbaycan Partiyasının Məramnaməsində öz əksini tapıbdır. Bizim həm xarici siyasətdə, həm daxili siyasətdə, həm ictimai-siyasi sahədə, həm sosial-iqtisadi sahədə gördüyümüz işlər həmin milli ideologiyanın üzərində qurulur.

Bu milli ideologiya nədən ibarətdir? Birincisi, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə, hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından – hər şeydən üstün tutsun».



Təsadüfi hesab etmək olmaz ki, milli ideologiyamızın fərəqə sütününu təşkil edən «Azərbaycançılıq» Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və YAP-ın öz fəaliyyətində əsaslandığı ideoloji prinsiplərdən biridir. Bu – Azərbaycanda vahid milli dövlətçilik hissiyatının formalaşmasını, milli yetkinləşmə və bütövləşməni, Azərbaycan dilinin bir dövlət dili olaraq inkişafını və bütün ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini nəzərdə tutur.

Buradan belə nəticəyə gəlmək olar ki, Azərbaycan ideologiyasını Heydər Əliyev ikili səciyyədə təqdim edir. Bura bir tərəfdən milli dövlətçilik ideologiyası, digər tərəfdən isə, milli-mənəvi dəyərlər daxildir.

Dövlətçilik ideologiyası son illər daha çox əhəmiyyət kəsb etməyə başlamışdır ki, bu da gənc respublikamızın müstəqillik yoluna yenicə qədəm qoyması, keçid dövrünün hələ tamamlanmaması ilə şərtləndirilir. Bu ideologiya ölkə vətəndaşlarını Vətənə məhəbbət ruhunda tərbiyə olunmasını, hər bir işdə, hər bir əməldə ilk növbədə dövlətin mənafeyinin güdülməsini nəzərdə tutur. Heydər Əliyevə görə dövlətçilik ideologiyası, dövlətçilik psixologiyası və dövlətçilik təcrübəsinin olmadığı ölkədə dövlətçilik ənənələri yarana bilməz.

Hüquqi və siyasi şüurun yüksəldilməsi, insanların bir-biri ilə münasibətlərinin cəmiyyətdə gedən proseslərlə uzlaşdırılması, hər bir şəxsin birbaşa və ya bilavasitə dövlət idarəçiliyində iştirak etməsinin təmin olunması məhz dövlətçilik ideologiyası çərçivəsində mümkündür.

Dövlətçilik ideologiyasının əhatə etdiyi məqsədlərə eyni zamanda iqtisadi təfəkkürün və iqtisadi mədəniyyətin inkişaf etdirilməsi, dövlət tərəfindən qəbul edilmiş qanunvericilik aktlarının və aparılan iqtisadi islahat proseslərinin məqsədyönlü şəkildə vətəndaşların rifahı ilə əlaqələndirilməsi daxildir.

Beləliklə, müasir şəraitdə Azərbaycan ideologiyası barədə danışarkən, yeni iqtisadi doktrinaya, yeni iqtisadi münasibətlərə keçidin əsas prinsiplərini unutmaq olmaz, çünki həyata keçirilən sosial-iqtisadi proqramların əsasında duran ideyalar bu ideologiyanın kontekstinə daxil edilməlidir.

Ona görə də dövlət başçısı kimi Heydər Əliyev bu məsələlələrin reallaşması zəminində yarana biləcək uyğunsuzluqları nəzərə alaraq iqtisadi islahat proqramının həyata keçirilməsi zamanı milli-mənəvi dəyərlərin də qorunub saxlanmasına bacarıqla nail olur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin verdiyi bütün müvafiq fərman və sərəncamlarda dövlətçiliyin iqtisadi və mənəvi təməlləri arasında qarşılıqlı əlaqələrin uzlaşdırılmasını nəzərdə tutan müddəalar vardır.

Azərbaycan ideologiyasının bugünkü təmayülünü səciyyələndirən əsas komponentlərdən biri iqtisadi islahatlarla sıx surətdə bağlıdır. Heydər Əliyev dahi və

uzaqgörən siyasi xadim kimi Azərbaycanı yalnız yeni iqtisadi münasibətlər çərçivəsində görür; bazar iqtisadiyyatının zərurətindən danışarkən o, belə demişdir: «Bizim iqtisadi siyasətimiz məlumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır».

Məsələ bundadır ki, uzun müddət sosialist iqtisadiyyatı şəraitinə zorən uyğunlaşdırılmış Azərbaycan yeni sosial-iqtisadi duruma keçid zamanı ölkədəki daxili tarazlıq pozulmuşdu və ilk mərhələlərdə dövlət başında duran təcrübəsiz siyasi baxışları çox dar çərçivə ilə məhdud olan insanlar bu vəziyyətdən çıxmaq qabiliyyətinə malik deyildilər. İctimai sabitliyi yalnız hüquq-mühafizə orqanlarının işi hesabına əldə etməyə cəhd göstərən AXC-Müsavat cütlüyü cəmiyyətin tarixi dialektik inkişafından xəbərsiz olduğunu bir daha sübut etmiş oldu. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə bu problemin həllinin ilk növbədə iqtisadi və sosial-mənəvi həyatın tarazlaşdırılması hesabına həllinə üstünlük verməyə başladı. Azərbaycanda iqtisadi siyasətin yeni, yüksək mərhələsinə qədəm qoyuldu. «Əsrin müqaviləsi» adını qazanmış neft kontraktları ABŞ başda olmaqla, dünyanın aparıcı ölkələrinin diqqətini Azərbaycana yönəltdi, gənc olmasına baxmayaraq, dövlətimizin iqtisadi qüdrəti ilə hesablaşanların sayı Heydər Əliyev dühasının təsiri altında gündən-günə artmaqdadır. Bu gün Azərbaycan iqtisadi tənəzzüldən uzaqlaşaraq tərəqqi yoluna qədəm qoymuşdur.

Təbiidir ki, yüksək inkişaf mərhələsinə çatmaq üçün biz də inkişaf etmiş kapitalist ölkələrinin yolunu keçmək zərurəti ilə üz-üzəyik. Lakin bu yollar çox müxtəlifdir və hər hansı bir taktiki və ya strateji səhv gələcəkdə qarşısıalınmaz fəsadlar törədə bilər. Bundan ötrü dünya sivilizasiyasına qovuşmuş ölkələrin inkişaf tarixini, iqtisadiyyatının keçid yollarını və inkişaf tendensiyalarını (meyllərini) bilmək vacibdir.

Heydər Əliyevin dərindən ölçülüb-biçilmiş mükəmməl siyasi-iqtisadi planı Azərbaycanın belə çətin bir dövrdə dünya iqtisadiyyatına ağrısız inteqrasiya olunması üçün münbit şərait yaratmışdır. Bu halda milli ideologiyanın ən mühüm komponentlərindən biri kimi milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi də əsas vəzifə kimi qarşıya qoyulur.

Azərbaycanın yerləşdiyi tarixi-coğrafi ərazi ona «Şərqin qapısı» adını qazandırmışdır. Bu baxımdan təbiidir ki, Azərbaycanın bir dövlət kimi, azərbaycanlıların isə bir xalq kimi mahiyyətinin formalaşması bir tərəfdən Şərq təməlinin, digər tərəfdən isə Qərb sivilizasiyasının təsiri altında baş vermişdir. Bununla belə bu məkan ayrıca Avropanın və Asiyanın deyil, Avrasiya birliyinin spesifik bir ərazisi olduğu üçün, məhz Azərbaycanda müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin vəhdəti yaranmışdır ki, bunlar da Azərbaycanın milli ideologiyasının mahiyyətini kompleks formada tamamlayır.

Tarixin keşməkeşli yollarında bu iki meylin mütənasibliyini qoruyub saxlamaq və onu vətəndaş cəmiyyəti kimi dünyəvi dəyərlər baxımından daha yüksəklərə qaldırmaq üçün hələ çox işlər görülməlidir. Ümumiyyətlə isə, Azərbaycan



ideologiyası həm də iqtisadi cəhətdən ona yaxın olan dövlətlərlə münasibətlərin qurulmasını özündə ehtiva edir.

Müxtəlif iqlim qurşaqlarında yerləşmiş respublika zəngin təbii ehtiyatlara və sərvətlərə malikdir. Lakin ölkəmizin xammal ixrac edən ölkədən məhsul istehsal edən ölkəyə çevrilməsi milli ideologiyanın iqtisadi baxımından qarşısında duran problemlərdəndir. Respublikanı mütərəqqi texnologiya ilə təmin etmək, müasir hərbi-sənaye kompleksi yaratmaq, özəlləşdirmə proqramını tam həyata keçirmək, istehsal sahələrinə investisiya qoyuluşlarını təmin etmək, azad sahibkarlıq üçün Azərbaycanı iqtisadi cəhətdən cazibədar etmək – Azərbaycan ideologiyasının iqtisadi tələb və təminatlarındandır. Ölkə rəhbərliyinin bu sahədə apardığı uğurlu siyasətin nəticəsi kimi son 10 ildə respublika iqtisadiyyatı müsbət və stabil dinamika üzrə inkişaf etməkdədir.

Müdrikcəsinə düşünülmüş neft strategiyasının reallaşdırılması ilə yanaşı, ölkə daxilində sahibkarlığın inkişafını təmin edən vacib hüquqi dövlət aktlarının qəbul edilməsi buna münbit şərait yaratmışdır. Şübhəsiz, bu – Heydər Əliyevin ölkəmiz və xalqımız üçün göstərdiyi saysız-hesabsız tarixi xidmətlərinin cüzi bir hissəsidir.

Şübhə yoxdur ki, milli ideologiya çərçivəsində özünüdərkin inkişafı üçün ziyalı zümrəsinin yetişməsi çox vacibdir. Cəmiyyətin bu təbəqəsi xalqın yüksəlməsinə və milli varlığın mühafizəsinə yönəlmiş spesifik fəaliyyətlə ictimai münasibətlərə çox güclü təsir göstərə bilir. Ona görə də hər bir xalqın və millətin mövcudluğunun əsas atributlarından biri də onun milli mədəniyyətə və milli xüsusiyyətlərə milli-mənəvi dəyərlərin şüur müstəvisində proyeksiyası olan milli mentalitetə malik olmasıdır.

Milli ideologiyanı bir qayda olaraq, yaradıcı şəxslər, ziyalılar, filosoflar, yazıçı və şairlər, alimlər formalaşdırır və inkişaf etdirir. Siyasətşünaslar, siyasi liderlər və dövlət başçıları isə milli ideologiyanın bir komponenti olan milli dövlətçilik konsepsiyasını işləyib hazırlayırlar.

Ümummilli inkişaf strategiyasına dövlət quruculuğu və sosial-iqtisadi inkişaf strategiyası ilə bərabər milli-mənəvi dəyərlərin də daxil edilməsi üçün adətən ziyalı zümrəsi ölkə rəhbərliyinə, siyasi liderə təsir göstərməyə çalışır.

Lakin ziyalılarımızın milli tərəqqi prosesindəki rolunu azaltmadan və onların milli ləyaqətinə xələl yetirmədən inamla söyləmək olar ki, xalqımızın bütün sosial təbəqələrini milli dəyərlər uğrunda mübarizəyə cəlb olunmasında Heydər Əliyev qədər şəxsi əzmkarlıq nümunəsi göstərən ikinci bir dövlət başçısı, siyasi lider və hətta millətçi ziyalı tapmaq müşküldür. Bu, ona görə belədir ki, prezidentimiz sadəcə olaraq, xalqı sevməyin, vətənpərvərliyin ali nümunəsini alim və yazarlarımızdan daha yaxşı mənimsədiyinə görə bu təşəbbüslərin müəllifi olmaqla yanaşı, həmişə onların reallaşdırılmasına şəxsən rəhbərlik edir. Məsələn, Füzulinin 500 illik yubileyi, «Kitabi-Dədə Qorqud»un 1300 – illik yubileyi məhz onun təklifi əsasında böyük təntənə ilə qeyd olunmuşdur və bu hadisələr dünya ədəbi aləmində böyük əks-səda doğurmuşdur.